# Uşaqların psixi sağlamlıqlarının dəyərləndirilməsi: Valideyn himayəsindən məhrum olmuş uşaqlar

Müəlliflər

**Nərmin Osmanlı,** Hacattepe Universiteti, Türkiyə
E-mail: nermin_osmanli@hotmail.com
https://orcid.org/0000-0001-8931-648X

**Maarif Məmmədov,** Osmanqazi Universiteti, Eskişehir, Türkiyə.
E-mail: maarif.pdr@gmail.com

**Anar Babayev,** Xəzər Universiteti, Bakı, Azərbaycan.
E-mail: anar_musasoy@yahoo.com
https://orcid.org/0000-0002-9323-0838

Annotasiya

Valideyn himayəsindən məhrum uşaqlar fiziki, zehni və sosial inkişaf baxımından risk qrupunda yer almaqdadır. Bu tədqiqatın məqsədi valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün fəaliyyət göstərən bir himayə mərkəzində uşaqların psixi sağlamlıqlarının dəyərləndirilməsi və ortaya çıxan nəticəyə görə təkliflərin hazırlanmasıdır. Tədqiqatda iştirak edən uşaqlardan 27-si (40.9%) qız, 39-u (59.1%) oğlandır. Yaşları 4-17 yaş aralığında olan uşaqların yaş ortalaması 10.2±2.8 olaraq hesablanmışdır. Uşaqların 32.3%-ində Yüksək problem balı, 43.9%-də Davranış problemləri, 18.4%-də Emosional problemlər, 28.8%-də Hiperaktivlik/diqqət əksikliyi, 42.4%-də Yaşıdlarla problemlər müşahidə edilmişdir. Cins və yaşın yaşanan psixoloji problemlərdə müəyyənedici dəyişən olmadığı (p>.05), mərkəzdə məskunlaşma müddəti 3 ildən uzun olan uşaqlarda 1-3 il arası, qalan uşaqlarla müqayisədə emosional problemlərin, davranış problemlərinin, eyni zamanda yaşıdlarla problemlərin daha yüksək olduğu nəticəsi əldə edilmişdir (p<.05). Nəticədə, uşaqların psixo-sosial inkişafının dəyərləndirilməsi, həmçinin qoruyucu və risk faktorlarının müəyyən edilməsi psixi inkişaflarının dəstəklənməsi və həyat keyfiyyətlərinin artırılmasında vacib rol oynamaqdadır.

Açar sözlər

Uşaq inkişafı, valideyn himayəsindən məhrumluq, psixi sağlamlıq, emosional və davranış çətinlikləri.

http://dx.doi.org/10.29228/edu.4

Məqaləyə istinad: Osmanlı N., Məmmədov M., Babayev A. (2019) *Uşaqların psixi sağlamlıqlarının dəyərləndirilməsi: Valideyn himayəsindən məhrum olmuş uşaqlar.* «Azərbaycan məktəbi». № 2 (687), səh. 61–69.

Məqalə tarixçəsi: Göndərilib — 12.04.2019; Qəbul edilib — 09.05.2019

# The Evaluation of Children's Mental Health Problems: Children Deprived of Parental Care

Authors
**Narmin Osmanli,** Hacattepe University, Turkey.
E-mail: nermin_osmanli@hotmail.com
https://orcid.org/0000-0001-8931-648X

**Maarif Mammadov,** Osmangazi University, Eskishehir, Turkey.
E-mail: maarif.pdr@gmail.com

**Anar Babayev,** Khazar University, Baku, Azerbaijan.
E-mail: anar_musasoy@yahoo.com
https://orcid.org/0000-0002-9323-0838

Abstract
Children without parental care are at risk for physical, mental and social development. The purpose of this study is to evaluate the mental health of children deprived of their families and prepare proposals for the outcome. 27 (40.9%) of the children attending the study were girls and 39 (59.1%) were boys. The age range for children was 4-17 and the mean age was 10.2 ± 2.8. Azeri version of the Strengths and Difficulties Questionnaire (SDQ) was used to determine the behavioural and emotional problems of the students. As a result of descriptive analysis, 32.3% of the children were evaluated as abnormal according to the total difficulties score, 18.4% of the children had emotional symptoms, 43.9% had conduct problems, 28.8% hyperactivity/inattention, 42.4% had peer relationship problems and 7.6% were abnormal in the pro-social behaviour subtest. It was found that gender and age did not play a determining role in existing psychological problems ($p > .05$). Emotional and behavioral problems were higher in children who were live in foster houses for over 3 years ($p < .05$) compared with children who spend 1-3 years. As a result, these studies play an important role in evaluating the psychosocial development of children, as well as defining protective and risk factors, supporting mental development and improving the quality of life.

Keywords
Child development, parental deprivation, mental health, emotional and behavioural difficulties.

http://dx.doi.org/10.29228/edu.4

To cite this article: Osmanli N., Mammadov M., Babayev A. (2019) *The Evaluation of Children's Mental Health Problems: Children Deprived Of Parental Care.* Azerbaijan Journal of Educational Studies. Vol. 687, Issue II, pp. 61–69.

Article history: Received — 12.04.2019; Accepted — 09.05.2019

## Giriş

Uşaqlar cəmiyyətin ən həssas üzvü sayıldıqları üçün Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyası daxilində 18 yaş və aşağı olan uşaqların xüsusi qorunması və qayğısına qalınması ilə əlaqədar bir sıra tədbirlər görülmüşdür. Uşaqlar güvənli, stabil və dəstəkləyici ailələrdə sağlam və xoşbəxt şəkildə yaşayırlar, ancaq təəssüflər olsun ki, heç də bütün uşaqların bu ehtiyaclarını qarşılamaq fürsətləri olmur. Bir çox səbəbdən *(məs., yoxsulluq, valideynin vəfatı, valideynlərin fiziki, ruhi, zehni məhdudiyyətinin olması vs.),* uşaqlar valideyn yanındaykən belə fiziki, zehni və emosional ehtiyaclarını qarşılamama riski daşıyırlar. Bu vəziyyətdə əvvəlcə uşağın yenə ailə və qohumlar əhatəsində, yəni uşağın ailə əsaslı himayə olunması, bunun da mümkün olmadığı hallarda ictimai qoruma sistemi içərisində yaradılan xidmət modelləri ilə uşağın baxımı təmin edilməkdədir. Bu xidmət modellərində uşaqların sağlam böyüməsini və inkişafını təmin etmək üçün bir sıra tədbirlər görülməkdədir.

Himayəyə ehtiyacı olan uşaqların qorunması üçün bir sıra fərqli metodların olduğu bəllidir. Bunlar, uşaqların öz ailələrinin yanında qalmaları şərtilə, onlara maddi, psixoloji və sosial dəstəyin verilməsi, uşağa qan bağı olmayan bir ailədə baxılması (qoruyucu ailə), qohumları tərəfindən uşağın himayə olunması, övladlığa alınma və hər hansısa bir qurum tərəfindən himayə olunma şəklində təsnif oluna bilər. Dünya təcrübəsinə baxıldığında uşaqların himayə olunma forması hər ölkənin öz sosial-iqtisadi vəziyyəti və həmin cəmiyyətin adət-ənənəsinə görə dəyişməklə yanaşı, bu xidmət modelləri içində ən geniş yayılmış olanları qurum baxımı, qoruyucu ailə və övladlığa götürmə xidmətləri olduğu görülməkdədir. Dünya ölkələri incələndiyində Norveçdə qoruyucu ailə sistemi ön planda ikən, Fransada himayə mərkəzlərində baxım və qoruyucu ailə eyni səviyyədə, Yaponiyada isə himayə mərkəzlərində baxımının ilk sırada olduğu bilinməkdədir [Yıldırım, 2013]. Ölkəmizdə ən geniş yayılan xidmət modeli dövlət və ictimai birliklər tərəfindən göstərilən xidmətlərdir.

Bu qurumlarda uşaqların fiziki baxımının təmin edilməsi, onların sağlam bəslənməsi, sağlamlıq ehtiyaclarının zamanında qarşılanması kimi təməl baxım xidmətləri ilə bərabər, eyni zamanda onların ictimai və emosional ehtiyaclarının da əskiksiz şəkildə ödənilməsi çox əhəmiyyətlidir. Ancaq bu qurumlarda yaşayan uşaqların ailə bütünlüyü içərisində olmadığını nəzərə alsaq, uşaqların psixi sağlamlıqlarına təsir edəcək bir sıra risk faktorları mövcuddur.

Aparılan başqa bir tədqiqatda, uşağın ehtiyaclarına həssas yanaşma, uşaq üçün pozitiv təqdir nümayiş etdirmək, uşaqla müəyyən bir bağ qurmaq kimi xüsusiyyətlərin zehni və fiziki inkişafla düz mütənasib olduğu müəyyən edilmişdir. Ailələri ilə birgə yaşayan uşaqların fiziki və zehni inkişaflarının himayə mərkəzlərində yaşayan uşaqlarla müqayisədə daha yüksək səviyyədə olduğu təsbit olunmuşdur. [Özdemir, Sefer, Türkdoğan, 2008].

Valideyn himayəsindən məhrum olan uşaqların psixoloji ehtiyaclarının müəyyən

olunması üçün aparılan başqa bir tətqiqatda xüsusi evlərdə yaşayan uşaqların fizioloji ehtiyaclarının qarşılanmasına baxmayaraq sosial və psixoloji inkişafları üçün lazımi şəraitin kifayət qədər olmadığı görülmüşdür [Çivi, Altuhul ve Yaycı, 1993; Muhamedrahimov, Palmov, Nikiforova, Groark ve McCall, 2004].

Yuxarıda qeyd olunan tədqiqat nəticələrini də nəzərə alsaq, valideyn himayəsindən məhrum olmuş uşaqların psixi sağlamlıqlarının dəyərləndirilməsi və ehtiyac olan sahələrdə onların dəstəklənməsi əhəmiyyət kəsb etdiyini vurğulaya bilərik. Bu mövzudakı ədəbiyyata baxıldığında Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün fəaliyyət göstərən qurumlarda uşaqların psixi sağlamlıqlarının dəyərləndirilməsi ilə əlaqəli hər hansı tədqiqatla rastlanılmamışdır. Ona görə də bu tədqiqatın əhəmiyyətli olduğu düşünülməkdədir. Valideyn himayəsindən məhrum olan uşaqların sosial bacarıqlarının inkişaf etdirilməsi, əlaqədə olduğu digər ictimai sistemlərlə münasibətlərinin yaxşılaşdırılması, cəmiyyətin müvafiq qurumlarının bu statuslu uşaqların həyatında edə biləcəklərinin müəyyən olunması üçün əhəmiyyətlidir. Bu tədqiqat valideyn himayəsindən məhrum olmuş uşaqların psixi sağlamlığının dəyərləndirilib, ortaya çıxan nəticəyə görə ehtiyac olan sahələrdə dəstəyin formalaşmasına və bu istiqamətdə atılacaq addımlara çıxış nöqtəsi ola biləcək. Aparılan araşdırmada əldə ediləcək nəticələrin bundan sonra oxşar mövzuda aparılacaq tədqiqatlara dayaq nöqtəsi ola biləcəyi, eyni zamanda valideyn himayəsindən məhrum olan uşaqların yaşadığı müəssisələrdə çalışan işçilərin sahə ilə əlaqəli bacarıqlarının yaxşılaşdırılması və ya hansı sahədə inkişaf etdirilmələrinə dair fikirlərin əldə olunmasına və yeni tədqiqat mövzularının ortaya çıxmasına töhfə verəcəyi düşünülməkdədir.

## Metod

***Tədqiqat Qrupu***

Tədqiqatın qrupunu Bakı şəhərində xüsusi himayə mərkəzində məskunlaşan 4-17 yaş arası 66 uşaq təşkil etmişdir.

***Ölçmə Vasitəsi***

Uşaqlarla bağlı demoqrafik məlumatları əldə etmək üçün onların şəxsi işləri incələnmiş və tərbiyəçi müəllimlərlə görüşülmüşdür. Uşaqlarda emosional və davranış problemlərini müəyyən etmək məqsədi ilə Salayev, Rüstəmov və yoldaşları (2014) tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş Güclü tərəflər və Çətinliklər Anketi (Strengths and Difficulties Questionnaire) tətbiq edilmişdir. Anket «Emosional Simptomlar», «Hiperaktivlik və Diqqət Əskikliyi», «Davranış Problemləri», «Yaşıdlarla Münasibət» olmaq üzrə çətinlikləri ölçən və «Sosial Davranışlar» olmaq üzrə güclü yönü müəyyən edən 5 alt testdən ibarətdir. Anketdə 25 maddə yer almaqdadır. Maddələr 3-lü dərəcələndirmə şkalası (doğru deyil, qismən doğrudur, əlbəttə doğrudur) ilə cavablandırılır. Hər alt testdən ayrı bal əldə edildiyi kimi alt testlərin cəmindən «Ümumi Çətinlik Balı» da əldə edilməkdədir. Testdən əldə edilən ümumi bal 0-40 aralığında dəyişməkdədir.

**Cədvəl 1.** Uşaqlarla bağlı sosio-demoqrafik məlumatlar

| | N | % |
|---|---|---|
| **Cinsi** | | |
| qadın | 27 | 40.9 |
| kişi | 39 | 59.1 |
| **Mərkəzə yerləşdirilmə səbəbi** | | |
| ana-ata ayrılığı | 29 | 43.9 |
| ana ölümü | 9 | 13.6 |
| ata ölümü | 12 | 18.2 |
| maliyyə | 5 | 7.6 |
| ata həbsdə | 5 | 7.6 |
| valideynlərdən biri və ya hər ikisinin xəstəliyi | 2 | 3 |
| qeyd olunmayıb | 4 | 6.1 |
| **Mərkəzdə baxım müddəti** | | |
| 1-3 il | 44 | 66.7 |
| 3-6 il | 19 | 28.8 |
| qeyd olunmayıb | 3 | 4.5 |
| **Cəmi** | **66** | **100** |

**Cədvəl 2.** Güclü tərəflər və çətinliklər anketi üçün təsviri statistikalar

| Alt testlər | M | SD | Risk Qrupu | Yüksək Çətinlik |
|---|---|---|---|---|
| Ümumi çətinlik balı | 2,91 | 6.05 | 26.2% | 32.3% |
| Emosional simptomlar | 2.68 | 2.09 | 12.3% | 18.4% |
| Davranış problemləri | 4.95 | 2.40 | 6.1% | 43.9% |
| Hiperaktivlik/ Diqqət əksikliyi | 3.39 | 2.57 | 13.2% | 28.8% |
| Yaşıdlarla problemlər | 2.68 | 1.74 | 24.2% | 42.4% |
| Sosial davranışlar | 2.91 | 1.89 | 4.6% | 7.6% |

***Dataların Analizi***

Uşaqlarda emosional və davranış problemlərinin dəyərləndirilməsi üçün təsviri statistikalar çıxarılmış, fərqli qrupların bal ortalamalarını qarşılaşdırmaq məqsədi ilə İndependent Samples t Test və One Way ANOVA, dəyişənlər arasında münasibəti incələmək məqsədi ilə korrelyasiya testləri edilmişdir. Analizlər SPSS 24.0 Proqramı ilə həyata keçirilmişdir.

**Nəticələr**

Tədqiqatda iştirak edən uşaqlardan 27-si (40.9%) qız, 39-u (59.1%) oğlandır. Uşaqların yaş səviyyəsi 4-17, yaş ortalaması isə 10.2±2.8 olaraq hesablanmışdır. Uşaqlarla bağlı digər demoqrafik məlumatlar Cədvəl 1-də göstərilmişdir.

Uşaqlarda emosional və davranış problemlərinin dəyərləndirilməsi məqsədi ilə tətbiq edilən Güclü Tərəflər və Çətinliklər testinin nəticələri Cədvəl 2-də təqdim edilmiştir.

Cədvəl 2-də izləndiyi kimi, uşaqların 26.2 %-i emosinal və davranış çətinlikləri baxımından risk qrupunda ikən, 32.3%-i anormal olaraq adlandırılan aralıqda yer almaqdadır. Davranış problemləri, tərbiyəçi müəllimlər tərəfindən ən çox problem bildirilən alt testdir. Uşaqların 6.1%-i bu problem sahəsində risk qrupunda,

**Cədvəl 3.** Məskunlaşma müddəti və alt testlərlə bağlı t testi nəticələri

| | M | SD | T | *p* |
|---|---|---|---|---|
| | 1-3 | 3-6 | | |
| Ümumi çətinlik | 12.91 (5.51) | 16.00 (6.26) | 1.82 | ns |
| Emosional simptomlar | 2.30 (1.77) | 3.67 (2.42) | 2.17 | s* |
| Hiperaktivlik/ Diqqət problemləri | 5.18 (2.61) | 4.63 (2.47) | 0.79 | ns |
| Yaşıdlarla problemlər | 3.02 (1.73) | 3.95 (1.27) | 2.36 | s* |
| Sosial davranışlar | 7.80 (1.76) | 7.22 (1.66) | 1.21 | ns |

** 60 df, p<.05*

43.9 %-i anormal olaraq qeyd edilən sərhədlərdədir. Qurumda məskunlaşan uşaqlar üçün ən yüksək çətinliyin müşahidə edildiyi digər sahə «Yaşıdlarla problemlər»dir. Bu alt testdən əldə edilən nəticələrə görə, uşaqların 24.2%-i risk qrupunda, 42.4%-i anormal aralıqda yer almaqdadır. Uşaqların 13.2%-nin «Hiperaktivlik/diqqət əskikliyi» alt testində risk qrupunda, 28.8%-i isə anormal aralıqda olduğu müşahidə edilmişdir. Emosional simptomlar baxımından dəyərləndirildiyində, uşaqların test nəticələri 12.3%-i risk qrupunda, 18.4%-i anormal aralıqdadır.

Ümumi çətinlik dərəcəsinin və alt testlərin nəticələrinin cinsiyyətə görə fərqlənib-fərqlənmədiyini incələmək məqsədi ilə edilən *t* testində nəticələrin cinsə görə mənalı fərqlilik göstərmədiyi görülmüşdür (p>.05).

Yaş faktoru ilə problem balları arasındakı münasibəti incələmək məqsədi ilə edilən korrelyasiya testinə görə yaş ilə Ümumi çətinlik balı və digər alt testlər arasında korrelyasiyaya rast gəlinməmişdir (p>.05).

Mərkəzə gəlmə səbəbləri incələndiyində uşaqların 43.6%-nin ana-ata ayrılığı, 13.6 %-nin ana ölümü, 18.2%-nin ata ölümü, 7.6%-nin maliyyə səbəblərindən, 7.6%-nin ata həbsdə olduğu üçün 3%-nin valideynlərdən biri və ya hər ikisinin xəstəliyi ilə bağlı yerləşdirildiyi aşkar edilmişdir. Gəlmə səbəbələrinə görə uşaqların çətinlik balı ortalamalarının fərqlilik göstərib-göstərmədiyini test etmək üçün edilən One Way ANOVA analizi nəticəsində ana ölümü səbəbi ilə mərkəzə yerləşən uşaqların maliyyə səbəbindən mərkəzə yerləşən uşaqlara nisbətən daha çox yaşıdları ilə problem yaşadığı izlənmişdir (F(5, 56)= 3.26) p<.05).

Uşaqların 66.7%-i 1-3 il, 28.8%-i 3-6 il aralıqlarında himayə mərkəzində məskunlaşmaqdadır. Himayə mərkəzində məskunlaşma ili ilə psixoloji simptomlar arasında əlaqənin incələnməsi ilə bağlı *t* testinin nəticələri Cədvəl 3-də verilmişdir.

Cədvəl 3-də müşahidə edildiyi kimi, mərkəzdə məskunlaşma müddəti uzandıqca uşaqlarda emosional simptomlar, davranış problemləri və yaşıdlarla problemlər artmaqda, 3 ildən artıq müddət qurumda qalan uşaqlar bu sahələrdə daha çox problem yaşamaqdadır.

Valideyn və qohumlarla əlaqə vəziyyəti incələnmiş, nəticədə uşaqların 52.9 %-nin ana ilə, 1.8%-nin ata ilə, 1.5%-nin hər iki valideynlə, 43.8%-nin digər qohumlarla görüşməyə davam etdiyi öyrənilmişdir. Ana ilə davamlı əlaqənin uşaqların ümumi çətinlik dərəcəsinə təsir edib etmədiyini dəyərləndirmək məqsədi ilə Independent samples t test edilmiş, ana və digər qohumlarla görüşən uşaqların bal ortalamaları qarşılaşdırılmışdır. Analiz nəticəsində ana ilə davamlı görüşən uşaqların ümumi çətinlik balı ortlaması ilə (M=12.61) digər qohumlarla görüşən uşaqların çətinlik balı ortlaması (M=15.67) arasında statistiki olaraq mənalı fərqin olduğu müşahidə edilmişdir ($t(60.7) = 2.2$, $p < .05$). Bənzər şəkildə yaşıdlarla problem alt testində ana ilə əlaqəsi davam edən uşaqların (M=2.94) ana ilə görüşməyən uşaqlarla müqayisədə daha yüksək problem yaşadığı (M=3.90) görülmüşdür ($t(59.64) = 2.29$, $p < .05$).

## Nəticə və Təkliflər

Bu tədqiqatın məqsədi valideyn himayəsindən məhrum olmuş 4-17 yaş aralığındakı uşaqların psixi sağlamlıqlarının dəyərləndirilməsidir. Tədqiqatdan əldə edilən nəticələr dəyərləndirildikdə, valideyn himayəsindən məhrum olan uşaqların cinsindən və yaşından asılı olmayaraq fərqli səviyyələrdə davranış və emosional problemlər yaşadıqları görülməkdədir. Analizlər nəticəsində uşaqların 32.3%-də Yüksək Problem balı, 43.9%-də Davranış Problemləri, 18.4%-də Emosional Problemlər, 28.8%-də Hiperaktivlik/diqqət əskikliyi, 42.4%-də Yaşıdlarla Problemlər müşahidə edilmişdir. Bu nəticələr bu mövzuda həyata keçirilmiş digər tədqiqat nəticələriylə üst-üstə düşməkdədir [Bıyıklı. 1987; Özdemir, Sefer, Türkdoğan, 2008; Saçan, Şimşek, Artan, Erol, 2014; Sloutsky, 1997]. Belə ki, V.M.Sloutsky (1997) valideyn himayəsindən məhrum olmuş uşaqlarla ailələrinin yanında yetişən uşaqları qarşılaşdırmışdır. Tədqiqatçı, sosial həyatda və ailə münasibətlərində çox əhəmiyyətli olan ortaq məxrəcə gələ bilmək, empatiya qurmaq, ünsiyyət kimi bir çox bacarığın himayə mərkəzlərində yaşayan uşaqlarda lazımi səviyyədə olmadığını aşkara çıxarmışdır. Himayə mərkəzlərində yaşayan uşaqların ailəsi ilə birlikdə yaşayan uşaqlardan fərqli olaraq, fərqli rolları müşahidə etmə şanslarının olmadığını, əsasən qatı sərhədlər və standart rollar ilə qarşılaşdıqları üçün onların emosional və davranış problemləri inkişaf etdirmə ehtimallarını artırmaqdadır. Aparılan başqa tədqiqatlarda da, himayə mərkəzlərində yaşayan uşaqların fiziki və zehni inkişafları ailələri ilə birgə yaşayan uşaqlarla müqayisədə daha aşağı səviyyədə olduğu müəyyən edilmişdir [Bıyıklı, 1982; Özdemir, Sefer və Türkdoğan, 2008].

Tədqiqatdan əldə edilən digər bir nəticədə himayə mərkəzlərində qalan uşaqların ailələri ilə kifayət qədər əlaqələrinin olmadığı görülməkdədir. Analizlər nəticəsində,

himayə mərkəzlərində qalan uşaqların daha çox (52.9 %) anaları ilə münasibətdə olduğu, ata ilə sadəcə 1.8% uşağın münasibətdə olduğu, hər iki valideynlə isə sadəcə 1.5%-nin münasibətlərinin davam etdiyini göstərməkdədir. Digər tərəfdən, ana ilə davamlı görüşən uşaqların ümumi çətinlik balı ilə digər qohumlarla görüşən uşaqların çətinlik balı arasında statistiki olaraq mənalı fərqin olduğu müşahidə edilmişdir. Bənzər şəkildə yaşıdlarla problem alt testində ana ilə əlaqəsi davam edən uşaqların ana ilə görüşməyən uşaqlarla müqayisədə daha az problem yaşadığı görülmüşdür. Digər tədqiqat nəticələrinə baxdığımızda da himayə mərkəzlərində qalan uşaqların ailələri ilə çox münasibətinin olmadığını [Demirbilek, 2000; Şenocak, 2005], onların özlərini yalnız hiss etdiklərini və təşviş, neqativ mənlik qavrayışı, depressiya kimi psixoloji problemlər yaşadıqlarını göstərməkdədir [Akgün, Subaşı və Kubilay, 2012; Aral, Gürsoy, Bıçakçı, 2006; Bulut, 1995]. Taylor (2003) qurumlarda himayə olunan uşaqların emosional və sosial fəaliyyətlərdən qıt və az ünsiyyətlə ictimai həyatda rol aldıqlarını ifadə etməkdədir.

Ədəbiyyatda yer alan araşdırmaların nəticələri uşaqların ailələri ilə olan münasibətlərinin inkişaf etdirilməsinin önəmini ortaya qoymaqdadır. Belə ki, himayə mərkəzlərində qalan uşaqların valideynləri ilə olan münasibətləri artdıqca, yaşadıqları psixoloji problemlərin səviyyəsində anlamlı şəkildə azaldığı müşahidə olunur. Bu səbəblə, uşaqların ailə əlaqələrini inkişaf etdirmələri üçün bu əlaqənin qurulmasına maneə törədən faktorlar açıq şəkildə ortaya qoyulmalı və bu faktorları aradan qaldırmaq üçün tədbirlər həyata keçirilməlidir. Ailə fiziki olaraq uzaqda isə uşağın ailənin olduğu ən yaxın yerdəki uşaq evində qalmasının təmin edilməsi buna nümunə göstərilə bilər. Həmçinin uşaqların öz ailələrini ziyarət etməsi təmin olunmalıdır. Bir çox valideynlər uşaqların hansı şərtlərdə, kimlərlə, necə bir həyat içərisində olduğunu bilməməkdədir, beləliklə, valideynlərin uşaqların yaşadıqları yerləri ziyarət etməsi də əhəmiyyət kəsb etməkdədir.

Yekun olaraq, valideyn himayəsindən məhrum olmağın uşaqlarda psixo-sosial inkişaf üçün ciddi bir risk faktoru olduğu, uşaqlara psixoloji dəstəyin mütəmadi olaraq təmin edilməsi və sosial işçilərin bu sahədə görəcəyi tədbirlərin önəmli olduğu vurğulana bilər.

## İstifadə edilmiş ədəbiyyat

1. Akgün, Ş., Subaşı, M. B., Kubilay, G. (2012). Yetiştirme Yurdunda Kalan 16-18 Yaş Grubundaki Adölesanların Anksiyete Düzeylerinin Belirlenmesi. *Hemar-G* 14(1), 34-45.
2. Aral, N., Gürsoy, F., Bıçakçı, M.Y. (2006). Yetiştirme yurdunda kalan ve kalmayan kız ergenlerin yalnızlık düzeylerinin incelenmesi. *Elektronik Sosyal Bilimler Dergisi,* 5(15), 10-19.
3. Bıyıklı, L. (1982). Yetiştirme Yurdundaki Çocukların Zihinsel ve Psiko-sosyal Gelişimlerinin İncelenmesi. *A.Ü Eğitim Bilimleri Fakültesi Dergisi,* 20 (1), 87-98.

4. Bulut, I. (1995). "Korunmaya Muhtaç Genç Kızların Ruh Sağlığına Etki Eden Psikolojik Faktörler". *Kriz Dergisi* 3(1-2),104-113
5. Büyüköztürk, Ş. (2015). VeriAnalizi El Kitabı. Ankara PegemAkademi.
6. Çivi, S., Altuhul, S., & Yaycı, M. (1993). 7-12 Yaş Yuva Çocukları İle Aile Çocuklarının Psikososyal Davranışları. *Sağlık ve Sosyal Yardım Vakfı Dergisi,* 3 (1), 16-19.
7. Çokluk, Ö.,Şekercioğlu, G. and Büyüköztürk, Ş. (2010). Sosyal bilimler için çok değişkenli istatistik. Ankara: PegemAkademi.
8. Demirbilek, S. (2000). Korunmaya Muhtaç Gençlerin Topluma Kazandırılmasında Yetiştirme Yurtları. D.E.Ü. *İktisadi ve İdari Bilimler Fakültesi Dergisi* 15(2),137-152.
9. http://www.e-qanun.az/framework/3859 (10.02.2018-ci il tarixində baxıldı)
10. https://www.sos-childrensvillages.org/getmedia/384bc38a-62aa-4c2a-9563-a5ecc61b6a77/SOS-Child-at-risk-report-web.pdf (15.03.2018 tarixində baxıldı)
11. Muhamedrahimov, R. J., Palmov, O. I., Nikiforova, N. V., Groark, C. J., & McCall, R. B. (2004). Institution-based early intervention program. *Infant Mental Health Journal,* 25(5), 488-501.
12. Özdemir, N., Sefer, N., & Türkdoğan, D. (2008). Bir sosyal sorumluluk projesi örneği: "Korunmaya muhtac çocukları". *Sosyal Bilimler Dergisi / Journal of Social Sciences,* 32(2), 283–305.
13. Saçan, S., Şimşe, Z., Artan, İ., Erol, N. (2014). Kurum bakımından aile yanına döndürülen 6-18 yaş çocukların duygusal ve davranış sorunları. *E-Journal of New World Sciences Academy,* 9 (2); 1-18.
14. Salayev, K., Rustamov, İ., Gadjiyeva, N., Salayev, R., Sanne, B. (2014). The Discriminative Ability of the Azeri Version of the Strengths and Difficulties Questionnaire in Outpatient Practice. *Community Mental Health Journal,* DOI 10.1007/s10597-014-9791-y.
15. Sloutsky, V. M. (1997). Institutional care and developmental outcomes of 6-and 7-year oldchildren: A contextualist perspective. *International Journal of Behavioral Development,* 20(1), 131-151.
16. Şenocak, H. (2005). *Korunmaya Muhtaç Çocuklar: İstanbul Yetiştirme Yurtları Üzerine Bir Alan Araştırması.* (Yayınlanmamış Doktora Tezi). İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü. İstanbul.
17. Şimşek, Z., Erol, N., Öztop D., Özcan, Ö. (2008). Kurum Bakımındaki Çocuk ve Ergenlerde Davranış ve Duygusal Sorunların Epidemiyolojisi; Ulusal Örneklemde Karşılaşƨrmalı Bir Araştırma. *Türk Psikiyatri Dergisi,* 19 (3), 235-246.
18. Taylor, S.T. (2003). The Effect Of Early Deprivation on Children Reared in Orphanages. www.eric.ed.gov./ERICWebPortal/ Search Record Details_ED475594.
19. Yıldırım, Ş. (2013). Çocuk Evinde Kalan Çocuklarin İlişki Dinamikleri: İzmir Örneği. Doktorantura tezisi, Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü. Ankara.